# Cavad Heyət və türk kimliyi mövzusu



**AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda “Cavad Heyət və türk kimliyinin elmi zəfəri” mövzusunda elmi sessiya keçirilib.**

Elmi sessiyanı açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli çıxışında Cavad Heyətin türkologiya, tibb elmi və digər sahələrdə əvəzedilməz xidmətləri olduğunu diqqətə çatdırıb. Bildirib ki, “Varlıq” dərgisi Cavad Heyətə humanitar sahənin görkəmli mütəxəssisi kimi nüfuz qazandırıb.

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli çıxışında Cavad Heyətin çoxşaxəli fəaliyyətindən, onun ədəbiyyatşünaslıq, ədəbi tənqid, publisistika və fəlsəfə tarixinin ən müxtəlif məsələlərinə dair tədqiqatlarından söz açıb.

Elmi seminarda “Xatirələrimdəki Cavad Heyət”, “Doktor Cavad Heyət: alovlu vətənpərvər və əsl ziyalı olmağın parlaq nümunəsi”, “Varlıq” dərgisinin ilk sayı və Əncüməne-Azərbaycanın nümunələri”, “Elmi işçilərin hamisi”, “Tanımadığım və yaxından tanıdığım Cavad Heyət” adlı məruzələr dinlənilib.

Tədbirin qonaqları – Robert Bağır Heyət, yazıçısı, tərcüməçi və publisist, Almaniya Yazarlar Birliyinin üzvü Orhan Aras və Nadir Heyət çıxışlarında Cavad Heyətlə bağlı xatirələrini bölüşüblər.

***XQ***

Xalq qəzeti.- 2025.- 26 iyun (№ 130).- S.16.